

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 178 (23.089)

20 sentyabr 2018-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

İqtisadi sahədə əməkdaşlığın çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev bir sıra Avstriya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğulayıb. Dövlətimizin başçısı əminliklə qeyd edib ki, Avstriya Respublikasının vitse-kansleri Haynts-Kristian Ştraxenin böyük nümayəndə heyəti ilə Azərbaycana səfər etməsi onların ölkəmizlə yaxından tanış olmaları üçün yaxşı imkan yaradacaq və səfər zamanı idman, nəqliyyat və digər sahələrdə əməkdaşlıqla bağlı aparılan danışıqlar ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafına öz töhfəsini verəcəkdir.

Haynts-Kristian Ştraxe qeyd edib ki, böyük nümayəndə heyəti ilə ölkəmizə səfərinin əsas məqsədi yaxşı səviyyədə olan Avstriya-Azərbaycan əlaqələrini daha da dərinləşdirmək və əlaqələrimizin xoş ənənələrindən çıxış edərək bu işlərə töhfə vermək niyyətindən ibarətdir. O, iki ölkə rəsmiləri arasında təmasların əlaqələrimizin inkişafı baxımından önəmli olduğunu deyib. Haynts-Kristian Ştraxe ölkələrimiz arasında iqtisadi və digər sahələrdə əməkdaşlığı dərinləşdirmək, strateji əhəmiyyətli məsələlərin müzakirəsi və konkret birgə layihələrin icrası məqsədilə şuranın yaradılmasını və bu şuranın iclaslarının mütəmadi olaraq keçirilməsini təklif edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 19 sentyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında neft sənayesi sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs "Tərəqqi" medalı ilə təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikasının qaz təsərrüfatı işçiləri də vardır.

**Cəfərov Nadir Zeynal oğlu**

**Hüseynov Tofiq Vəli oğlu**

**Məmmədov Sahib Qəhrəman oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## Avqust ayında 754 abunəçi internetlə təmin edilib

***Muxtar respublikada yeni texnologiyaların tətbiqi və əhaliyə keyfiyyətli rabitə xidmətlərinin göstərilməsi 2018-ci ilin avqust ayında da uğurla davam etdirilmişdir.***

"Huawei" şirkəti ilə bağlanmış müqaviləyə əsasən 15 yeni nəsil avtomat telefon stansiyasının muxtar respublikaya gətirilərək quraşdırılmasına başlanmışdır. Şərur rayonunun Gümüşlü, Şahbulaq, Şahbuz rayonunun Daylaqlı, Babək rayonunun Nəhəcir kəndlərində Kareltipli avtomat telefon stansiyaları yeni nəsil avtomat telefon stansiyalarla əvəz olunmuş, Şərur rayonunun İbadulla, Şahbuz rayonunun Yuxarı Qışlaq kəndlərində yeni nəsil avtomat telefon stansiyalarının montaj-tənzimləmə işləri başa çatdırılmışdır.

Kəngərli rayonunun Qarabağlar kəndində əhalinin telefon çəkilişinə olan tələbatı nəzərə alınaraq 448 nömrəlik yeni avtomat telefon stansiyasının quraşdırılaraq Qıvraq mərkəzi avtomat telefon stansiyasına qoşulması təmin edilmişdir.

Mövcud avtomat telefon stansiyalarının nömrə tutumlarının artırılması nəticəsində hesabat ayında 163 yeni telefon nömrəsi istismara verilmiş, muxtar respublika ərazisində, ümumilikdə, 15 min 200 metr fiber-optik kabel xətti çəkilmişdir. Bu dövrdə genişzolaqlı ADSL texnologiyası vasitəsilə 754 yeni abunəçi internetlə təmin olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Yeni alınan təyyarəyə "Günnüt" adı verilib



*Azərbaycan "Buta Airways"ə məxsus yeni "Embraer E-190" təyyarəsi alıb. Aviaşirkətin verdiyi məlumatda bildirilir ki, sözügedən təyyarə birbaşa olaraq Braziliyadakı istehsalçı zavoddan gətirilib. Yeni təyyarə aviaşirkətin uçuş cədvəlində daha çox tələbat olan istiqamətlərə əlavə reyslər yerinə yetirməyə imkan verəcək.*

"Buta Airways"in yeni təyyarəsi Şərur rayonunun 2018-ci ilin may ayında erməni işğalından azad olunan Günnüt kəndinin şərəfinə "Günnüt" adlandırılıb. Vurğulayaq ki, dünya təcrübəsində təyyarələrin böyük şəhərlərin və şəxsiyyətlərin adı ilə adlandırılması ənənəsi mövcud olsa da, ilk dəfə Azərbaycanda yeni alınan təyyarəyə kənd adı verilib.

Ənənəyə uyğun olaraq Heydər Əliyev Beynəlxalq Hava Limanında yeni təyyarənin qarşılanma mərasimi keçirilib. Azərbaycan Hava Yolları Qapalı Səhmdar Cəmiyyətinin sədri Cahangir Əsgərovun da iştirak etdiyi qarşılama mərasiminin xüsusi qonağı isə işğaldan azad olunan Günnüt kəndinin sakini Nəsib Novruzov olub.

Tədbirdə bu münasibətlə hazırlanan qısa videoçarx da təqdim edilib.

Qeyd edək ki, Əlahiddə Ümumqoşun Ordunun bu ilin əvvəlində apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində Şərur rayonunun 1992-ci ildən işğalda olan Günnüt kəndi ilə bərabər, ümumilikdə, 11 min hektar ərazi Ermənistanın işğalından azad edilib.

**Xəbərlər şöbəsi**

## Ölkə üzrə ən sərfəli kreditlər Naxçıvanda təklif olunur

*Davamlı dinamik inkişaf iqtisadi siyasətin əsas hədəflərindən biridir. Bu baxımdan səmərəli kreditləşmə mexanizminin təmin edilməsi istehsal və xidmət sahələrinin inkişafı, daimi məşğulluq və əhali gəlirlərinin artırılması kimi məqsədlərə xidmət edir. İqtisadi inkişaf və rifah üçün olduqca vacib olan kreditləşmə zamanı əsas şərtlərdən biri də kreditlərin sərfəli olmasıdır.*

Faiz dərəcələrinin istehlakçılar üçün optimal səviyyədə olması kreditlərin əlçatanlılığını artıran əsas amildir. Ölkə üzrə kredit bazarının təhlilinə nəzər yetirdiyimiz zaman Mərkəzi Bankın verdiyi məlumatlarda 2018-ci il avqust ayının 1-nə kreditlər üzrə tətbiq edilən orta faiz dərəcəsinin 11,9 faiz olduğunu görərik. Muxtar respublika iqtisadiyyatının inkişafı istiqamətində aparılan uğurlu kredit siyasətinin nəticəsi olaraq banklar və bank olmayan kredit təşkilatları tərəfindən kreditlər ən aşağı faiz dərəcələri ilə təklif edilmiş və nəticə etibarilə, əldə olunan rəqəmlər ölkənin digər iqtisadi rayonlarını geridə qoymuşdur.

Belə ki, cari ilin ötən 8 ayı ərzində muxtar respublikada fəaliyyət göstərən banklar və bank olmayan kredit təşkilatları tərəfindən verilmiş kreditlər üzrə orta faiz dərəcəsi 9 faiz təşkil edib. Bu göstərici ölkə üzrə ən aşağı faiz dərəcəsidir. Belə ki, orta faiz dərəcələri Aran iqtisadi rayonunda 22,8, Dağlıq Şirvan iqtisadi rayonunda 21,6, Şəki-Zaqatala iqtisadi rayonunda 22,1, Lənkəran iqtisadi rayonunda 22,2, Quba-Xaçmaz iqtisadi rayonunda 20,9, Gəncə-Qazax iqtisadi rayonunda 19,3, Yuxarı Qarabağ iqtisadi rayonunda 24,8, Abşeron iqtisadi rayonunda 16, Bakı şəhərində isə 10,3 faizdir.

Onu da qeyd edək ki, 1 avqust 2018-ci il tarixə muxtar respublika iqtisadiyyatının inkişafına yönəldilən ümumi kredit qoyuluşu 105 milyon 685 min 600 manatdır. Təkcə 2018-ci ilin 8 ayı ərzində muxtar respublika sakinlərinə verilmiş kreditlərin həcmi isə 30 milyon 760 min 400 manat təşkil edir.

**Tamerlan MƏMMƏDOV**

***Azərbaycan Respublikası Maliyyə Bazarlarına Nəzarət Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin əməkdaşı***

## Əhalinin sosial müdafiəsi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikasında işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı və reabilitasiyası ilə bağlı tədbirlər avqust ayında da davam etdirilib. Görülən işlərin nəticəsidir ki, ötən ay məşğulluq mərkəzləri vasitəsilə 248 işaxtaran müxtəlif sahələrdə işlə təmin olunub ki, onların da 80-i gənc, 77-si qadın, 5-i sağlamlıq imkanları məhdud şəxs, 5-i isə ünvanlı sosial yardım təyini üçün müraciət edənlərdir.

Ötən ay 45 nəfər müvəqqəti xarakterli işlərə göndərilib. Əhalinin məşğulluğunun təmin edilməsi tədbirləri çərçivəsində uzun müddət ünvanlı dövlət sosial yardımı alan 8 aztəminatlı ailəyə fərdi təsərrüfatlarını qurmaq üçün iribuynuzlu mal-qara verilib, kənd xidmət mərkəzlərində fəaliyyət göstərən bərbərxana, qadın gözəllik salonu və dərzi sexlərində 6 bərbər və 1 bərbər-manikürçü işlə təmin edilib. Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi və qazanxana maşinisti peşə kursları təşkil edilib. Ay ərzində sağlamlıq imkanları məhdud şəxslərin və tənha ahıllərın tibbi və sosial reabilitasiyası da diqqətdə saxlanılıb, bu kateqoriyadan olanlara tibbi-reabilitasiya və sosial-məişət xidmətləri göstərilib, sanatoriya və pansionatlara göndəriş verilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audiokitabxana xidmətindən istifadə edən görmə qabiliyyəti məhdud şəxslər tərəfindən 920 əsər dinlənilib, sağlamlıq imkanları məhdud məktəbli uşaqların yay tətili dövründə asudə vaxtlarının səmərəli təşkili məqsədilə müxtəlif tədbirlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Payız-qış mövsümündə əhalinin istiliklə təminatında problem olmayacaq

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri və bunun da əsasında yaradılmış müasir infrastruktur əhalinin ilin bütün fəsillərində rahat yaşayış səviyyəsini təmin edib. 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla bağlı həyata keçirilən tədbirlər həmin mövsümdə yarana biləcək problemlərin əvvəlcədən qarşısının alınmasına imkan verir. Diqqət mərkəzində saxlanılan əsas məsələlərdən biri əhalinin dayanıqlı istiliklə təmin olunmasıdır.

Naxçıvan Şəhər İstilik Təsərrüfatı İdarəsindən aldığımız məlumata görə, payız-qış mövsümü ilə əlaqədar olaraq idarə tərəfindən bir sıra tədbirlər həyata keçirilib və hazırda bu istiqamətdə işlər uğurla davam etdirilir. Artıq bir neçə mərkəzləşdirilmiş və fərdi qazanxanalarda əsaslı və cari təmir işləri görülüb, istismara yararlı qazanlar ərpdən təmizlənib, ötən mövsümdə sıradan çıxan avadanlıqlar yeniləri ilə əvəzlənib. Mərkəzləşdirilmiş qazanxanaların xarici istilik xətləri izolyasiya edilib, elektrik, qaz və su xətlərinə baxış keçirilib.

İdarədən verilən məlumatda o da bildirilir ki, Babək məhəlləsində yerləşən 3 nömrəli mərkəzləşdirilmiş qazanxanada istismara yararsız 1 ədəd suqızdırıcı qazan, 2 ədəd sirkulyasiya... 

Rather: yirtmə və elektrik şiti yenisi ilə əvəz edilib. Həmin məhəllədəki 26 nömrəli yaşayış binasında 8 ədəd ventil dəyişdirilib. Yeni Naxçıvan, 57 və 21 nömrəli mərkəzləşdirilmiş və fərdi qazanxanaların suqızdırıcı qazanları təmizlənib. Mövsümə hazırlıq tədbirləri şəhərin digər ərazilərində də aparılıb.

Hazırda yaşayış binalarının bir çoxunda daxili istilik xətlərinin dəyişdirilməsi işləri davam etdirilir. Belə ki, şəhərin Zərgər Həmzəyeva küçəsi 3, Heydər Əliyev prospekti 64, Abbasqulu bəy Şadlinski küçəsi 1 və 2 nömrəli yaşayış binalarının zirzəmilərində istismara yararsız istilik xətlərinin plastik borularla əvəz edilməsi, "İstiqlal" küçəsi 105 nömrəli yaşayış binasının zirzəmisində və Əliqulu Qəmküsar küçəsi 1a nömrəli binanın girişindən istilik qazanxanasına qədər olan məsafədə mərkəzi istilik xəttinin dəyişdirilməsi işləri davam etdirilir. Həmçinin 21 nömrəli mərkəzləşdirilmiş qazanxananın istiliklə təmin etdiyi 6 nömrəli uşaq bağçası, Heydər Əliyev prospekti 58-60, Zərgər Həmzəyeva küçəsi 3 və 4 nömrəli binaların magistral istilik xətləri plastik borularla əvəz edilir. Eyni zamanda Heydər Əliyev prospektindəki 40 nömrəli binanın zirzəmisində istismara yararsız istilik xətləri də yenilənir.

Qazanxanalarda çalışan ocaqçılar peşə kurslarına cəlb olunub. İşçilərin xüsusi mövsümi geyim formaları ilə təmin edilməsi, ocaqçıların təhlükəsizlik qaydalarına əməl etmələri üçün maarifləndirici tədbirlərin həyata keçirilməsi diqqətdə saxlanılır.

Xatırladaq ki, bu mövsümdə də ötən illərdə olduğu kimi, 5 mərkəzləşdirilmiş, 38 fərdi qazanxana vasitəsilə 173 yaşayış binası, 7 min 634 mənzil və 30 inzibati bina istiliklə təmin olunacaq.

Onu da deyək ki, son illər yeni inşa olunan binalarla yanaşı, mövcud inzibati və ictimai yaşayış binalarının istilik sistemlərinin yenidən qurulması ilə əlaqədar olaraq istilik şəbəkəsi ildən-ilə genişləndirilib, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla fərdi qazanxanalar tikilib istifadəyə verilib. Bu qazanxanalardan inzibati və yaşayış binalarınadək olan məsafədə istilik xətləri tunellər vasitəsilə çəkilib ki, bu da həmin xətlərin korroziyaya uğramasının qarşısını alıb. Bu, yaranmış nasazlıqların yerüstü kommunikasiya xətlərini zədələmədən aradan qaldırılmasına və mütəmadi nəzarət olunmasına əlverişli şərait yaradır.

**Nail ƏSGƏROV**

# Ulu öndər Heydər Əliyevin neft strategiyası ölkəmizin davamlı inkişafına yol açıb

*Azərbaycan dünyanın zəngin təbii sərvətlərinə malik olan ölkələrindən biridir. Ancaq etiraf etməliyik ki, xalqımız bu sərvətdən yalnız XX əsrin sonlarında – müstəqillik qazandıqdan sonra tam bəhrələnmək imkanı əldə edib. Bu imkanı reallığa çevirən isə ulu öndər Heydər Əliyev dühasının məhsulu olan yeni neft strategiyamız və həmin strategiyanın reallaşdırılması üçün hazırlanmış neft diplomatiyasıdır.*



1994-cü ilin 20 sentyabrında Bakı şəhərinin “Gülüstan” sarayında XX əsrin ən böyük iqtisadi layihələrindən olan, tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adı ilə bütün dünyada məşhurlaşan saziş imzalandı. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissələrinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanması həm də neft sənayesi infrastrukturunun xeyli yaxşılaşdırılmasına imkan yaratdı. Digər tərəfdən, “Əsrin müqaviləsi” sonralar dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanmasına yol açaraq, ilk növbədə, Azərbaycan dövlətinin inkişafında və xalqımızın rifahının yüksəlməsində mühüm rol oynadı. “Əsrin müqaviləsi” Azərbaycanın bir dövlət kimi siyasi və iqtisadi təhlükəsizliyinin təmin olunmasına, dünya iqtisadi sisteminə qoşulmasına və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsinə əlverişli şərait yaratdı. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***“Əsrin müqaviləsi” məhz Azərbaycanın dövlət müstəqilliyinin əldə olunmasından irəli gəlmiş tarixi hadisədir. Biz sübut etdik ki, Azərbaycan etibarlı tərəfdaşdır. Biz sübut etdik ki, Azərbaycana xarici sərmayənin gəlməsi və istifadə olunması üçün burada bütün imkanlar yaradılıbdır. Biz sübut etdik ki, Azərbaycana gələn hər bir iş adamı, şirkət, vətəndaş burada azad, sərbəst, rahat işləyə və yaşaya bilər. Biz bu müqaviləni imzaladıq və sübut etdik ki, Azərbaycan xalqının milli mənafeləri üçün çalışırıq və ona görə də bu cür nailiyyətləri əldə etməyə qadirik”.***

“Əsrin müqaviləsi”nin imzalanması üçün bir sıra məsələlərin əvvəlcədən öz həllini tapması vacib idi. Bunlardan birincisi ölkədə ictimai-siyasi sabitliklə yanaşı, iqtisadi sabitliyin, inkişafın, onun dayanıqlılığının təmin olunması idi. 1993-cü ildə Azərbaycanda xalqın tələbi ilə ikinci dəfə ali hakimiyyətə qayıdan ulu öndərimizin xilaskarlıq missiyasının əsas hədəflərindən biri də o zamana qədərki xaos və anarxiya mühitində məhv olmuş iqtisadiyyatı yenidən canlandırmaq, insanları düçar olduqları maddi çətinliklərdən xilas etmək idi. Dahi şəxsiyyət ölkəni təlatümlərdən, parçalanmaqdan, yox olmaqdan xilas etdi və sabitliyi bərpa etdi. Xarici neft şirkətləri həmin dövrdə məhz ulu öndərimiz Heydər Əliyevin siyasi iradəsinə sığınaraq Azərbaycana üz tutdular.

Dahi şəxsiyyətin işləyib hazırladığı yeni neft strategiyasının reallaşdırılmasında Onun ən böyük silahdaşı məhz o zamanlar Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olan cənab İlham Əliyev idi. Həmin dövrdə Vaşinqton, Nyu-York, Hyuston, Dallas, İstanbul və digər şəhərlərdə iri neft şirkətlərinin rəhbərləri ilə səmərəli görüşlər keçirən və danışıqlar aparan cənab İlham Əliyev xalqımızın milli maraqlarını tam təmin edən müqavilə şərtlərinin əldə edilməsi üçün gərgin əmək sərf etmişdir.

Ulu öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri də Azərbaycan neftinin dünya bazarına nəqli yollarının dəqiq müəyyənləşdirilməsi idi. Xalqımızın və dövlətimizin mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri layihəsi əsas götürüldü və geridə qalan illər sübut etdi ki, bu variant, həqiqətən, Azərbaycan maraqlarını tam təmin edir.

Ümummilli liderimizin qətiyyəti sayəsində çox böyük manеələrə baxmayaraq, 2002-ci il sentyabrın 18-də Bakıda Azərbaycan, Gürcüstan və Türkiyə prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təməli qoyuldu. Təxminən, üç il sonra, 2005-ci ilin mayında kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin istifadəyə verilməsi mərasimi keçirilib və boru xəttinə ilk neft vurulub. Həmin ilin oktyabrında isə kəmərin Gürcüstan hissəsi istifadəyə verilib. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatıb və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salınıb.

“Üç dəniz əfsanəsi” adlandırılan və strateji əhəmiyyəti ilə seçilən layihənin əfsanədən gerçəkliyə çevrilməsi ötən qısa zaman kəsiyində Azərbaycana çox böyük siyasi və iqtisadi qazanclar gətirib. Bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Son illərdə öz geosiyasi və iqtisadi əhəmiyyəti ilə seçilən TANAP, TAP kimi iri transmilli layihələrin reallaşdırılmasında Azərbaycanın söz sahibinə çevrilməsi və əhəmiyyətli paya malik olması, “XXI əsrin layihəsi” hesab edilən “Şahdəniz-2” layihəsinin reallaşdırılması da əsası “Əsrin müqaviləsi” ilə qoyulan böyük neft strategiyasının davamıdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“1994-cü ildə “Əsrin müqaviləsi” imzalanarkən bəziləri bunun uğuruna inanmırdı və hesab edirdilər ki, müqavilə elə kağız üzərində qalacaq. Çünki onun həyata keçirilməsi üçün təkcə iqtisadi deyil, eyni zamanda, siyasi və coğrafi-siyasi məsələlər öz həllini tapmalı idi. Heydər Əliyevin neft strategiyası və Heydər Əliyev diplomatiyası qarşımızda duran bütün məsələlərə nail olmaq üçün imkan yaratdı”.***

Görkəmli dövlət xadimi Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının uğurla davam etdirilməsi istiqamətində ötən il daha bir tarixi müqavilə imzalanıb. 2017-ci il sentyabr ayının 14-də Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissələrinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması mərasimi keçirilib. Hasilatın Pay Bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş sazişə əsasən “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulacaqdır.

“Əsrin müqaviləsi” Azərbaycana indiyədək olduğu kimi, neftdən gələn gəlirləri qeyri-neft sektoruna yönəltmək imkanı verəcək. Bununla da respublikamız bir çox neft hasil edən ölkələrdən fərqli olaraq nefti insan kapitalına çevirə bilən dövlət imicini qoruyub saxlayacaq. Eyni zamanda “Əsrin müqaviləsi” Azərbaycanın müstəqil dövlət kimi öz sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmində olduğunu təsdiqləyən tarixi sənəddir. Bu gün Azərbaycanın enerji siyasəti regional müstəvidən çıxaraq qlobal müstəviyə yüksəlib. Azərbaycan neft-qaz ixrac edən ölkə kimi dünya birliyi üçün etibarlı tərəfdaşa, enerji təhlükəsizliyi məsələlərində isə fəal subyektə çevrilib. Ötən illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına, Avropa Şurasının Nazirlər Komitəsinə və bir sıra mötəbər beynəlxalq təşkilatlara sədrlik etməsi, onun beynəlxalq nüfuzunun göstəricisidir. Bu gün Azərbaycan “Böyük iyirmilər”in sammitinə dəvət edilir. Azərbaycan kosmik ölkələr ailəsinin üzvüdür. Bakı və Naxçıvan dünyanın mütərəqqi təşkilatlarının tədbirlərinə ev sahibliyi edir. Ölkəmizin həm siyasi, həm də iqtisadi reytinqi gündən-günə artır. Bütün bunların hamısı ölkədə aparılan hərtərəfli islahatların, ən başlıcası isə ulu öndər Heydər Əliyevin neft strategiyasının bəhrələridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Hər bir dövlətin müstəqilliyinin dayanıqlı olması onun iqtisadi potensialından da asılıdır. Azərbaycanın tam müstəqil dövlət olması üçün onun iqtisadi inkişafının da əsaslarını hazırlayan ulu öndərimiz qısa müddətdə islahatların aparılmasına nail olmuş, davamlı inkişaf üçün böyük maliyyə imkanları yaradan neft strategiyasını işləyib hazırlamış, Azərbaycan regionda həyata keçirilən qlobal layihələrin təşəbbüsçüsü və fəal iştirakçısı rolunu oynamağa başlamışdır. O zaman nəhəng neft-qaz layihələrinin əfsanədən reallığa çevrilməsi müstəqil Azərbaycanın gələcəyi, Azərbaycan xalqının xoşbəxtliyi uğrunda atılmış addım kimi tarixə düşmüşdür”.***

**Rauf KƏNGƏRLİ**

*İstehsal müəssisələri*

# Süfrələrimizin bəzəyi – “Fərda” şirniyyatları

*Gündən-günə inkişaf edən muxtar respublikamızda onlarla istehsal müəssisəsi fəaliyyət göstərir. Bunlardan biri də çeşid-çeşid dadlı və keyfiyyətli məhsulları ilə şəhər, rayon, hətta ən ucqar kəndlərimizdəki mağazaları belə bəzəyən, alıcı zövqünü oxşayan “Fərda” Şirniyyat İstehsalı Müəssisəsidir.*






Müəssisənin rəhbəri Zamiq Səfərovla söhbətimiz zamanı bildirdi ki, “Fərda” hazırda daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edir. Müəssisənin fəaliyyətinə 2008-ci ildə icarəyə götürdükləri binada başladıqlarını qeyd edən sahibkar bir müddət sonra istehsal etdikləri məhsullara tələbatın artdığı üçün daha böyük əraziyə ehtiyac duyulduğunu və 2013-cü ildə Naxçıvan şəhərinin Babək məhəlləsində onlara yeni torpaq sahəsi verildiyini söylədi. Daim dövlət qayğısından bəhrələndiklərini vurğulayan Zamiq Səfərov həmin torpaq sahəsində hazırda müəssisənin fəaliyyət göstərdiyi üç mərtəbədən ibarət binanın tikildiyini, 2014-cü ildə yeni avadanlıqların alınması məqsədilə Sahibkarlığın İnkişafı Fondundan 100 min manat maliyyə dəstəyi göstərildiyini dedi.

2013-cü ildə tikintisinə başlanılan müəssisə 2016-cı ildə istifadəyə verilib. Binanın zirzəmisində xammal və hazır məhsulların saxlanılması üçün soyuducu anbar, ikinci mərtəbəsində şirniyyat istehsalı sahəsi, iaşə xidməti göstərilməsi üçün yeməkxana, digər yardımçı otaqlar, firma mağazası və kafe, üçüncü mərtəbəsində isə nanəli konfet, rahatlokum, dondurma istehsalı sahələri, inzibati heyət üçün ayrı-ayrı iş otaqları yerləşir. Burada Türkiyə və İran İslam Respublikasının “İsfahan soba”, “Məşhəd soba”, “Həmədan soba”, “Sevel”, “OMG” firmaları tərəfindən istehsal olunan ən müasir texnoloji avadanlıq və soyuduculardan istifadə olunur. Müəssisə rəhbəri söhbət zamanı maraqlı bir faktı da vurğuladı: – İstehsala bir soba ilə başlamışdıqsa, indi müəssisədə səkkiz soba var.

“Fərda” Şirniyyat İstehsalı Müəssisəsində hazırda 135 çeşiddə məhsul istehsal olunur. Bunun 120-si Şərq, milli və Avropa şirniyyatları, 6-sı rahatlokum, 8-i dondurma, 1-i isə nanəli konfetdir. Gündəlik istehsal gücü şirniyyat üçün 600, rahatlokum üçün 80-100, dondurma üçün may-avqust aylarında 200, hazırda isə 70, nanəli konfet üçün 80-100 kiloqramdır. Müəssisənin Naxçıvan şəhərində 5, Şərur və Culfa rayonlarının hər birində 1 mağazası, “Danyeri” və “Sizin market” ticarət obyektlərində şöbələri fəaliyyət göstərir. Həmçinin bu istehsal müəssisəsinin məhsullarının yuxarıda da qeyd etdiyimiz kimi, bütün rayon və kəndlərdəki ərzaq mağazalarında satışı təşkil olunur. Müəssisədə məhsulların mağazalara və sifarişçilərə çatdırılması üçün 6 avtomobilin xidmətindən istifadə edilir. Onlardan 3-ü məhsulları rayon və kəndlərdəki mağazalara, 3-ü isə Naxçıvan şəhərindəki mağazalara və tort sifarişlərini restoranlara çatdırmaq üçün ayrılıb.

“Danyeri” Alış-Veriş Mərkəzində “Fərda”ya ayrılmış bölmədə şirniyyatlarla yanaşı, 8-10 növdə satılan çörək də bu müəssisə tərəfindən mərkəzə məxsus çörək sexində bişirilib alıcılara təklif olunur. Çörəyin gündəlik istehsalı 1000 ədəddən artıqdır. Söhbət əsnasında Zamiq Səfərov onu da bildirdi ki, müəssisənin həyətyanı sahəsində təbii qazla və yanacaq olaraq odunla isidilməsi nəzərdə tutulan 2 təndir və 1 kürə düzəldilib. Məqsəd bu ilin sonunadək geniş şəkildə çörək istehsalına da başlamaqdır.

Müxtəlif növ şirniyyat və tort sifarişlərini qəbul edib, yüksək səviyyədə alıcıya təqdim edən “Fərda” Şirniyyat İstehsalı Müəssisəsi məhsullarının keyfiyyətinə görə hər bir naxçıvanlının üz tutduğu bir ünvandır. Bu ünvanda həm də yüksək sanitariya şəraitində hazırlanan məhsullar indi hər kəsin süfrəsini bəzəyir. İstənilən saatda, istənilən çəkidə və görüntüdə bayram, toy, doğum günləri və sair üçün tort sifarişləri həm də münasib qiymətlərlə yerinə yetirilir. Müəssisənin bütün mağazalarında gündəlik olaraq satılan şirniyyatlar isə süfrələrimizin bəzəyi olaraq daim onlardan dadmaq istəyənlərin xidmətindədir.

Müəssisənin “Cahan” Ticarət Mərkəzində yerləşən mağazasında olarkən burada müştəriləri çox səmimi qarşılayan satıcı qız diqqətimi cəlb etdi. Adını soruşdum, Kifayət Nəsirovayam, – dedi. Öyrəndim ki, 5 ildir, yəni mağaza açılandan burada çalışır. Söhbətimizə bizi kənardan dinləyən alıcılar – Naxçıvan şəhər sakinləri Ləman Abbasova və Süleyman Hüseynov da qoşuldular. Onların dediklərindən: – Biz bura tez-tez gəlirik. “Fərda”nın şirniyyatlarını ailəlikcə sevirik. Bir qonağımız gələn kimi, yaxud bütün bayramlarda, doğum günlərimizdə şirniyyat üçün bu ünvana üz tuturuq.

“Danyeri” ticarət obyektində isə şirniyyat və çörək alan Naxçıvan şəhər sakini Leyla Ağəliyevanın fikirlərini öyrəndik. O dedi: – Həqiqətən də, “Fərda”nın şirniyyatlarının əvəzi yoxdur. Hələ çörəyini demirəm. Buradan həmişə şirniyyat və çörək alıram. Aparıb mətbəxə qoyan kimi onların bir-birindən gözəl ətri ətrafa yayılır. Qablaşdırmaları isə daha nəfisdir. Əvvəllər şirniyyatları polietilen torbalara yığırdılar, evə çatanadək əzilib, ovulurdu. Elə indi də bəzi yerlərdə belədir. Lakin burada şirniyyatlar qutuya yığıldığına görə əzilmir və itkiyə getmir.

Bu gün muxtar respublikamızda sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır, müəssisələrin təminatı üçün hərtərəfli şərait yaradılır. “Fərda” Şirniyyat İstehsalı Müəssisəsi də bu şəraitdən səmərəli istifadə edərək öz işini günün tələbləri səviyyəsində qurur.

**Mətanət MƏMMƏDOVA**

*Kəngərli rayonunun Qarabağlar kəndi təkcə muxtar respublikamızın deyil, ümumilikdə, Azərbaycanın ən qədim yaşayış məskənlərindən biridir. Bu yaşayış məskəni haqqında tarixi mənbələrdə bir çox məlumatlar var. Orta əsrlər dövründə Qarabağların Yaxın Şərq ölkələri ilə Avropanı birləşdirən mühüm karvan yollarının üzərində yerləşməsi burada elm, mədəniyyət, sənətkarlıq və ticarətin inkişafına mühüm təsir göstərib. Təsadüfi deyil ki, orta əsr səyyahları Qarabağların böyük bir şəhər olduğunu bildirməklə yanaşı, həm də burada gözəl memarlıq abidələrinin – məscid, minarə, karvansaray, hamam kimi tikililərin mövcudluğundan bəhs edirlər. Təəssüflər olsun ki, zaman keçdikcə bu tikililərin böyük əksəriyyəti müxtəlif səbəblər üzündən dağılaraq məhv olmuş, çox az bir hissəsi bu günümüzədək gəlib çatmışdır.*

# QARABAĞLAR



## Orta əsrlərin möhtəşəm şəhərinə günümüzdən baxış

### *və ya sivilizasiyanın məhvedilmə səbəblərini düşünərkən...*



Daha doğrusu, dövrümüzədək salamat qalmış abidələr içərisində indi yalnız qoşa minarələri olan Qarabağlar türbəsini görə bilirik. Bu möhtəşəm abidə Naxçıvan memarlığının incilərindən sayılmaqla yanaşı, həm də bir neçə arxeoloji abidəni nəzərə almasaq, Qarabağların zəngin tarixi keçmişinə işıqtutan bir mayak rolunu oynayır. Ona görə ki, Qarabağlar türbəsi, sadəcə, bir abidə deyil. Təhlil etsək, görərik ki, bu tikili mühəndislik elementlərinin işlənmə texnikasına görə Naxçıvan memarlığının gücünü, inşa edildiyi tarixi dövrə görə təkmilləşmiş dövlət idarəçiliyini, üzərindəki yazılı kitabələrə görə islami dəyərlərə ehtiramını göstərməklə bərabər, zəngin milli və mənəvi dəyərlərimizin məcmusunu özündə cəm edib. Bizim bu yazıda toxunacağımız mövzu türbə haqqında deyil. Söhbət ondan gedir ki, bu gün muxtar respublikamızda tarixi abidələrə göstərilən dövlət qayğısı belə tikililərə ikinci həyat verməklə yanaşı, həm də həmin abidələrin yerləşdiyi ərazilərin elmi şəkildə öyrənilməsinə yeni imkanlar açıb. Yəni biz görülən işlərə elmi şəkildə kompleks yanaşmanı müşahidə edirik. Elə bunun nəticəsidir ki, Naxçıvanda bərpa olunaraq ictimaiyyətə təqdim edilən hər bir abidə haqqında yeni, dolğun, elmi əsaslara söykənən məlumatlarla tanış oluruq.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamı ilə bərpa işlərinə cəlb olunmuş, tam iki il sonra – bu il iyulun 5-də istifadəyə verilən Qarabağlar Türbə Kompleksi də görülən işlərdən sonra təkcə bu abidənin deyil, ümumilikdə, Qarabağlar yaşayış yerinin tarixi keçmişinə işıq tutur. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən hazırlanmış və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi tərəfindən nəşr olunmuş "Qarabağlar Türbə Kompleksi" adlı yeni kitabda Qarabağlarla bağlı maraqlı faktlar araşdırılaraq üzə çıxarılıb. Kitabda "Qarabağlar" sözünün etimologiyası, Qarabağlar türbəsinin memarlıq xüsusiyyətləri, türbə və onun ətrafındakı epiqrafik abidələr tədqiq olunub, türbə yaxınlığında olan tarix-memarlıq abidələri haqqında məlumatlar verilib. Halbuki bu məlumatları indiyədək bir mənbədən tapmaq mümkün deyildi. Eyni zamanda Qarabağların tarixi keçmişi ilə bağlı indiyədək kompleks tədqiqat işləri aparılmamışdı. Yaşayış yerinə məxsus abidələrin bəziləri ayrı-ayrılıqda müxtəlif dövrlərdə tədqiqata cəlb edilsə də, bəzi hallarda müəyyən tarixi yanlışlıqlara da yol verilmişdi. Nəticədə, bəzən bu yurd yerinə məxsus ərazilərin adı, bəzən tarixi tikililərin kitabələrindəki yazıların oxunuşu, bəzən isə tikililərin tarixi və ya onları inşa edən (etdirən) şəxslərlə bağlı məlumatlar bir-birindən fərqlənirdi. Bu isə təbii olaraq tarixi keçmişimizlə bağlı bilməyərəkdən təhrif olunmuş məlumatların yayılmasına səbəb olurdu. Məhz yeni nəşr olunmuş "Qarabağlar Türbə Kompleksi" kitabı tarixi faktların dili ilə oxucuya Qarabağların dünəni ilə bağlı məlumatlar verir.

Lakin bizim bu yazıda toxunmaq istədiyimiz orta əsrlərin karvan yolları üzərində yerləşən, ticarət, elm və mədəniyyətin inkişaf etdiyi, onlarla möhtəşəm abidələrin – karvansarayların, məscid, mədrəsə və hamamların mövcud olduğu bir şəhərin tarix üçün qısa bir zaman ərzində, necə deyərlər, "müxtəlif səbəblər üzündən" xarabalıqlara, o cümlədən kəndə çevrilməsidir. Mənbə olaraq yeni nəşr olunmuş kitaba diqqət edək:

"...Qarabağlar kəndi tarixi çox uzaqlara gedən qədim yaşayış məskənlərindən biri olmaqla, orta əsrlər dövründə Azərbaycanın qədim şəhərlərindən birinə çevrilmişdir... Burada olan möhtəşəm memarlıq abidələri – türbə və minarələr XII-XIV əsrlərdə Qarabağların böyük şəhər olduğunu sübut edir. Qarabağların şəhər kimi formalaşması və inkişaf dövrü isə Hülakülər dövləti dövründə olmuşdur. Qarabağlar şəhəri XVI əsrdə dağıntılara məruz qalsa da, şəhər bölgə mərkəzi kimi statusunu itirməmişdir. Lakin bununla belə, şəhərin əksər hissəsi xarabalıqlardan ibarət idi. Birinci Osmanlı idarəçiliyi dövründə (1587-1603) şəhər baxımsızlıq səbəbindən tənəzzülə uğramış və hətta 1590-cı il tarixli "İrəvan əyalətinin müfəssəl dəftəri"ndə kənd kimi qeyd edilmişdir". Kitabda daha sonra oxuyuruq: "Qarabağlar haqqında XV əsrin görkəmli salnaməçisi Nizaməddin Şami "Zəfərnamə" əsərində bəhs etmişdir. Nizaməddin Şami orta əsrlərin məşhur fatehi Əmir Teymurun səfərlərində onu müşayiət etmiş, tarixi hadisələrin canlı şahidi olmuşdu. Müəllif özünün "Zəfərnamə"sində Əmir Teymurun Hindistandan dönməsi bölməsində Teymurun Qarabağlarda müəyyən müddətdə qalmasını belə təsvir edir: "Əmir Teymur Hindistandan paytaxt Səmərqəndə qayıtdıqdan sonra İran məmləkətinə, xüsusilə Azərbaycana və ona bağlı yerlərə gürcü və ermeni əsgərləri tərəfindən təcavüzlər vaqe olduğunu, buna görə də rəiyyətin zərər gördüyünü xəbər aldı. Əmiri Hümayun namus və qeyrətinə toxunan bu hala görə 802-ci ildə (miladi 1399-1400 ) hərəkətlə Xorasana doğru yola düşdü. Sultaniyyəni keçərək Təbriz Qarabağlarına gəlib orada ordusu ilə nazil oldu və səhraları çadırları və bayraqları ilə işğal etdi, ordunu təftiş ilə əsgərlərin hamısına ülufə (yem) və yeyəcək verdi..."

Tarixçilərimizin də yazdığı kimi, Nizaməddin Şaminin bu şəhər haqqında yazdıqları ondan 300 il sonra burada olmuş Ö.Çələbinin "binur Teymur Qarabağlarda böyük bir qoşunu ilə beş ay müddətinə qışlağa qalmışdır" məlumatı ilə bir daha təsdiqlənir. Daha sonra oxuyuruq: "Məşhur türk tarixçisi İbrahim Əfəndi Peçevinin "Tarix" əsərində də Qarabağlar haqqında bəhs edilir. İbrahim Peçevi XVI-XVII əsrlərdə bu böyük Azərbaycan şəhərinin əhalisinin həyatı, ticarət və peşə sənətkarlığı haqqında məlumat verir. Göstərir ki, Qarabağlar onun dövründə böyük bir dairə olmuşdu. Yəni Qarabağlar şəhər və ona tabe olan ətraf yerlərdən ibarət idi..."

Kitabda qeyd olunur ki, Çələbi Azərbaycana birinci səfərində (1646-1647-ci illər) "Böyük Qarabağlar şəhərinin təsviri"nə geniş yer vermişdir: "Bu şəhərin binasını ilk dəfə Mənüçöhr qoymuşdur. Qədim şəhərdir; indi də Naxçıvan torpağında ayrıca sultanlıqdır. Qədim zamanlarda böyük şəhər imiş. 1012-ci ildə (1603-cü ildə) Üçüncü Məhəmməd xan zamanında Osmanlı əlində ikən Əcəm zəfər qazandı. 1045-ci il tarixində (1635-ci il) Rəvan fatehi, zəmanənin Murad xanı Rəvan fəthindən sonra bu şəhərə gəlib burada dayandıqda qədim əlyazmalarda cənnət qədər abad olan şəhərin dərya misal qoşunun ixtiyarına verərək onu bilmərrə dağıdıb xarab etmişdir, xarabalıqları hələ də durmaqdadır".

Deməli, bu tarixi dövrədək Qarabağlar şəhəri ən azından bir dəfə böyük dağıntıya məruz qalmışdır. Səyyah dağıntıların xarabalıqlarını müşahidə edərək bunu yol dəftərində qeyd edir. Ancaq bununla belə, şəhər yenə öz statusunu qoruyub saxlayır və XVII əsrdə bura səyahət edən Çələbi Qarabağları yenə də böyük bir şəhər kimi təsvir edir. Onun məlumatına görə, XVII əsrdə Qarabağlarda, təqribən, 50 min adam yaşayırdı. Bu, indiki Naxçıvan şəhər əhalisinin, təqribən, yarısı deməkdir. Bununla yanaşı, səyyah şəhərdə 10 min ev, 70 məscid, 40 minarə, karvansaray, hamam, bazar və digər obyektlərin olduğunu bildirir. Bütün bunlar onu göstərir ki, XVII yüzilliyin ortalarında Qarabağlar Naxçıvan bölgəsinin, bütövlükdə, Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri olmuşdur. Lakin maraqlı məqamlardan biri, elə bu yazının yazılmasını zəruri edən səbəblərdən biri də qısa bir müddət ərzində Qarabağlar kimi böyük, sivilizasiyalı şəhərin çox qısa bir dövrdə kəndə çevrilməsi, burada yuxarıda sayların açıqladığımız tikililərin günümüzədək heç bir iz qoymadan yox olması və mənbələrdə bununla bağlı məlumatların yoxluğudur.

AMEA-nın müxbir üzvü Qadir Qədirzadə "Qarabağlar Türbə Kompleksi" kitabında haqlı olaraq qeyd edir ki, "...O dövrdə Qarabağlar böyük İpək Yolu üzərində əsas ticarət mərkəzlərindən biri olmuşdur. Bütün bunların fonunda diqqətimizi çəkən və bizi düşündürən bir məqam da mövcuddur. Təqribən, 70 il sonraya aid "Naxçıvan sancağının müfəssəl dəftəri"ndəki məlumatlarda verdiyi vergilərdən Qarabağlar yaşayış məskəninin qonşuluqdakı digər kəndlərdən geridə qaldığı məlum olur..." Kitabda V.Qriqoryevin yazdıqlarına görə qeyd olunur ki, "Qarabağlar suyun çatışmazlığından əkinçiliyin zəif inkişaf etdiyi kəndlərdəndir. Bu vəziyyət sonralar da davam etməklə 14 may-17 dekabr 1886-cı ildə ailələr üzrə aparılmış kameral siyahıyaalmanın nəticələrindən məlum olur ki, Qarabağlar kəndində mövcud olan 192 evdən 189-da şiə etiqadlı müsəlman tatarlar olmaqla, toplam 1045 nəfər yaşayırdı. Rəqəmlərə görə, Övliya Çələbinin təsvir etdiyi 10000 evi, 50000 əhalisi olan yaşayış məntəqəsi 80 ildə dağılmışdır".

Bizim isə gəldiyimiz qənaət bundan ibarətdir ki, bu 80 illik dövr Qarabağlar kimi abad, sivilizasiyalı bir mədəni mərkəzin çökməsi üçün məqbul zaman sayılsa da, buradakı çoxsaylı tarixi tikililərin izləri və ya yerləşdiyi ərazilərlə bağlı məlumatların olmaması çox düşündürücüdür. Əgər V.Qriqoryevin yazdığına görə, su çatışmazlığından əhalinin buradan, deyək ki, köçü baş veribsə, bəs onda 40-ı minarəli olmaqla, 70 məscid, karvansaray və hamam binaları, böyük çarşı və bazarlar, dağıdılıbsa, sonrakı illərdə qalıqlarına niyə rast gəlinməyib? İndiki müharibələrin gücündən fərqli olaraq iki əsr bundan əvvəl aparılan müharibələrdə dağıntılar daha çox iz buraxırdı axı. Yox, əgər bu dağıntılar indiyədək mənbələrdə rast gəlinməyən hər hansı zəlzələ üzündən baş veribsə, o zaman yaşayış yerindəki türbənin minarələri niyə zəmanəmizədək salamat şəkildə gəlib çatıb? Biz mənbələrdə qeyd olunan məlumatların yalan olduğunu iddia etmirik. Əksinə, bu proseslərin yaşandığına inanırıq. Ancaq tarix elminin hələlik susduğu bu zaman fasiləsində "dağıdıcı müharibələr və yaxud təbii təsirlər nəticəsində" bu qədər sayda məscidin, hamam, çarşı, karvansaray, mədrəsə və digər binaların heç bir qalığına rast gəlinməməsi də inandırıcı görünmür. Morerin öz səyahətnaməsində qeyd etdiyi "Xokdan yuxarıda xarabalıqlar və bir neçə sütun vardır" fikri də məsələyə baxışda qaneedici görünmür. Təbii ki, bu tikililər dağıdılmışdır. Amma hansı şəraitdə, necə, kiminlə toqquşmalarda? Bizcə, gələcəkdə Qarabağlarla bağlı aparılan tədqiqatlar bu suallara aydınlıq gətirəcək. Biz həm də bu məsələyə ona görə toxunduq ki, Qarabağlar orta əsrlər dövründə Naxçıvan və Ordubad şəhərlərindən sonra mənbələrdə adı daha çox çəkilən elmi, mədəni və ticarət mərkəzlərdən olub. Tarixin öyrənilməmiş səhifələri haqqında məlumatlanmaq isə bizcə, hər kəs üçün maraqlı olar.

✍ **Səbuhi HƏSƏNOV**

---

## Elmi konfrans keçirilib

*AMEA Naxçıvan Bölməsində "Baba Nemətullah Naxçıvani və orta əsrlər İslam mədəniyyəti" mövzusunda elmi konfrans keçirilib.*



Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev sufi şeyxlərindən olan Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığından danışaraq bildirib ki, böyük mütəfəkkir "Qurani-Kərim"i təsəvvüf üslubunda şərh edən ilk alim kimi tarixə düşüb. O, təsəvvüf və təfsir sahəsində əsərlər qələmə alıb.

Diqqətə çatdırılıb ki, Baba Nemətullah Naxçıvani həyatının çox hissəsini Naxçıvanda, sonralar isə Təbrizdə və Türkiyənin Konya vilayətinin Ağşəhər qəsəbəsində yaşayıb. Konya valiliyinin təşəbbüsü ilə Ağşəhərdəki məktəbə alimin adı verilib.

Vurğulanıb ki, Nemətullah Naxçıvaninin heç bir ədəbiyyatdan istifadə etməyərək yazdığı ("Əl-Fəvatihül İlahiyyə vəl Məfatihül Qeybiyyə") "Quran" təfsir kitabı üç cilddən ibarətdir. İlk cilddə 13, ikinci cilddə 20, üçüncü cilddə isə 81 surənin təfsiri və şərhi yer alıb. Əsərin orijinalı İstanbulda Topqapı Sarayı III Əhməd Xan Kitabxanasında mühafizə olunur.

Məlumat verilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə sözügedən əsərin üç cildi cari ildə filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılova tərəfindən tərcümə edilib, üzərində son redaktə işləri aparılır.

Tədbirdə bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin, həmin institutun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun, Əlyazmalar fondunun Əlyazmaların kataloqlaşdırılması, tədqiqi və nəşri şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Səbuhi İbrahimovun, Ədəbiyyatşünaslıq şöbəsinin böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Nərgiz İsmayılovanın mövzu ilə bağlı məruzələri dinlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

---

## Ətraf mühitin mühafizəsi günün tələbidir



Ordubad rayonunun Düylün kəndində Naxçıvan Muxtar Respublikası Daxili İşlər, Ekologiya və Təbii Sərvətlər nazirlikləri Ordubad Rayon İcra Hakimiyyətinin iştirakı ilə birgə "Ətraf mühitin mühafizəsi: qanunvericiliyinin tələblərinin pozulması hallarına qarşı mübarizə aparılması" mövzusunda maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Rəşadət Orucov açaraq son illər ətraf mühitin mühafizəsi ilə bağlı ölkəmizdə, eləcə də muxtar respublikamızda görülən işlərdən danışıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları Azər Məmmədov və Qəhrəman Qasımov, Daxili İşlər Nazirliyinin əməkdaşı Elvin Səfərli müxtəlif mövzularda çıxış ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Abbas SEYİD**

*Rahib Qarayev 1960-cı ildə Laçın rayonunda doğulub, orada orta təhsil alıb. Bakı Orta Xüsusi Milis Məktəbini, həmin məktəbin bazasında yaradılmış Polis Akademiyasını bitirib. 1984-cü ildən Azərbaycan Respublikasının daxili işlər orqanlarına xidmətə qəbul edilib. 1993-cü ildən 2006-cı ilədək həm də nazirliyin “Mübariz keşikdə” qəzetində müxbir və şöbə müdiri kimi fəaliyyət göstərib. Rahib Qarayev müxbir kimi Naxçıvan polisinin fəaliyyətindən yazı hazırlamaq üçün ilk dəfə 1994-cü ildə bu qədim diyara gəlib. Hazırda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin idarə rəisi vəzifəsində çalışır, polis polkovnikidir. Yüksək dövlət təltiflərinə layiq görülüb. İllərdir ki, məzuniyyətinin bir neçə gününü Naxçıvanda keçirir.*

*Şəhərimizin qonaqları*

## Qədim mədəniyyət mərkəzi olan Naxçıvandakı müasir inkişaf əsl yurdsevərlik nümunəsidir



Ötən gün onunla redaksiyamızda həmsöhbət olduq. Naxçıvana ilk gəlişindən bu günə qədər burada gedən prosesləri, qədim oğuz yurdunun nail olduğu inkişaf və tərəqqini daim izlədiyini bildirdi, bir Azərbaycan vətəndaşı kimi gördüklərindən böyük qürur hissi keçirdiyini dilə gətirdi:

– Səmimi deyim ki, buraya gələndə özümü evimdəki kimi hiss edirəm. Elə bil ki, burada doğulmuşam, burada böyüyüb təhsil almışam, burada da işləyirəm. Belə olmasaydı, hər il ailəmlə bu qədim diyara gəlməzdim. Naxçıvanın bu gününü görəndə bu məkana ilk dəfə gəlməyimi xatırlayıram. Ucqar əyalətdən seçilməyən paytaxt şəhəri, fasilələrlə yanan işıq, istiliksiz evlər, tozlu-torpaqlı küçələr... Kənd yaşayış məntəqələri, rayon mərkəzləri bundan da bərbad vəziyyətdə. Bu mənzərələri bugünkü uşaqlara danışsan, yəqin ki, inanmazlar. Lakin Naxçıvan bütün çətinliklərə dözüb və bugünkü xoş və firavan günlərə sahib olub. Onu bu günlərə sahib edən isə ümummilli liderimiz Heydər Əliyev və dahi şəxsiyyətin siyasətini böyük sevgi və ehtiramla davam etdirənlərdir. Naxçıvandan başlanan bu siyasət ölkəni bütünlükdə əhatə edib. Qurmaq, yaratmaq siyasəti buradan başlayaraq Azərbaycanın hər yerinə gedib çıxıb. Yeri gəlmişkən onu da deyim ki, Naxçıvana bu gəlişimdə həyat yoldaşım və nəvəmlə birgə hava limanından birbaşa ulu öndərin şəhərin baş meydanında ucalan abidəsi önünə getdik. Axı bu gün nəvəm, onun yaşıdları bilməlidirlər ki, belə firavan həyatı bizə məhz ulu öndər Heydər Əliyev bəxş edib.

***– Bu gəlişinizdə gördüklərinizin sizdə yaratdığı yeni təəssüratlar da, yəqin ki, maraqlıdır...***

– Onu deyim ki, Naxçıvan günbəgün, ilbəil deyil, saatbasaat dəyişir, gözəlləşir, müasirləşir. Bütün bunlar sizin gözlərinizin qarşısında baş verdiyi üçün, bəlkə də, fərqinə varmırsınız və ikinci tərəfdən, bu yeniləşmə Naxçıvanda 20 ildən artıqdır ki, davam edir. Mən ötən il gördüklərimlə bu il arasında, lap 5-10 il bundan əvvəlki fərqi ilk baxışda hiss edirəm.

Görülən quruculuq tədbirlərində müasir arxitektura üslublarından istifadə, qədimliklə yeniliyin vəhdətdə götürülməsi, görülən işlərdə keyfiyyət amilinə ciddi diqqət yetirilməsi isə naxçıvanlıların doğma yurd yerlərinə bağlılıqları ilə yanaşı, həm də Naxçıvanı daha gözəl görmək istəyinin ifadəsidir. Alqışlanmalı istəkdir, təbii ki, mən də hər kəs kimi bunu təqdir edirəm. Bu gəlişimdə də bir çox yeniliklərin şahidi oldum. Yeni tikilən binalar, mövcud obyektlərin yenidən qurulması Naxçıvanda insan amilinin ön planda dayanmasını göstərir. Naxçıvanlılar da bunu görür, layiqincə dəyərləndirirlər. Bir ziyalı dostumun doğma yurd yerinin bu günündən necə qürurla danışdığını əsl yurdsevərlik kimi qiymətləndirmək olar.

Naxçıvanda ənənəyə çevrilən və örnək olan işlərdən biri də bu yurd yerində yaşıllıqlar və gülkarlıqlar salınmasının, ilboyu onlara qulluq göstərilməsinin vətəndaşlıq vəzifəsinə çevrilməsidir. Mən əvvəlki gəlişlərimdə də muxtar respublikanın bütün rayonlarında və bəzi kəndlərində olmuşam. Bu tədbirlərin həmin ünvanlarda da həyata keçirilməsini görmüşəm.

***– Budəfəki gəlişinizdə haralarda oldunuz?***

– Naxçıvanı “açıq səma altında muzey” adlandıranlar bu qədim yurd yerinə çox dəqiq qiymət veriblər. Qədim diyarın elə bir bölgəsi yoxdur ki, orada insanı ilk baxışdan cəlb edən, qəlbinə hərarət gətirən belə abidələrə rast gəlməyəsən. Son illərdə Naxçıvanda təbiət abidələrinin mühafizəsi istiqamətində görülən tədbirlər, tarixi abidələrin ilkinliyini qorumaqla onların təmir-bərpası buraya qonaq gələnlərə də xoş təsir bağışlayır. Bu tarixi abidələrdə təkcə muxtar diyarın deyil, ümumilikdə, Azərbaycanın şanlı keçmişi yaşayır. Onlara yeni həyat bəxş etmək tarixi yaşatmaq deməkdir. Tarixi yaşatmaq isə xalqı, dövləti yaşatmaqdır, ulu babalarımızın ruhuna böyük sevgi və ehtiramdır. Naxçıvanda bu iş elə böyük sevgi və ehtiramla həyata keçirilir. Sualınızdan uzaq düşmədən deyim ki, ulu öndərin abidəsini ziyarət etdikdən sonra, ilk olaraq üz tutduq ən müqəddəs məkan olan Əshabi-Kəhfə. Burada bir neçə dəfə olsam da, elə bil ilk dəfə idi ki, gəlirdim. Bu da ziyarətgahın sirli-sehrli möcüzəli bir məkan olduğunun sübutudur. Ziyarətgahda yaradılmış şərait son dərəcə yüksəkdir. Dünyanın hər yerindən üz tutulan bu ünvanda insan daxilən təmizlənir, özünü başqa bir dünyada hiss edir; bu dünya Tanrı dərgahına aparır insanı. Həmin gün ziyarətgahda yenə də qələbəlik idi. Orada yaşadığım hisslər hələ məni tərk etməyib, yəqin ki, uzun müddət də tərk etməyəcək.

Əshabi-Kəhfdən yolumuzu Əlincəqalaya salmaq istədik. Buna da şərait yaradıldı. Burada bir daha inandım ki, 14 il Əmir Teymurun qoşunlarına tabe olmayan insanlar elə naxçıvanlılar ola bilərdi. Elə qalanın bugünkü səviyyəyə gətirilməsi də dediklərimi sübut edir. Burada bir də onu düşündüm ki, bu, torpağa, yurda bağlılığın, onun dünəninə ehtiramın, sabahına cavabdehliyin ifadəsidir. Əgər bu varsa, hər şeyə nail olmaq mümkündür. Culfa rayonuna getmişkən Gülüstan kəndindəki abidəni də ziyarət etməyi qərara aldıq. Əlincəqalada yaşadığım hissləri burada yenidən yaşadım. Bu hisslərimi Batabat yaylağı daha da zənginləşdirdi. Möcüzəli “Üzən ada”nı seyr etdikcə Naxçıvan torpağının müqəddəsliyini bir daha təsdiqlədim. Bu görüntülərdə daha bir hiss yaşadım: naxçıvanlılar xoşbəxtdirlər. Bir də onu deyim ki, Batabatdan baxanda Laçının dağları görünür...

***– Rahib müəllim, Naxçıvanın 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsi də məhz sizin qeyd etdiklərinizlə yanaşı, həm də digər mühüm amillərlə bağlıdır...***

– Söhbətimizin əvvəlində də söylədiyim kimi, mən hər il Naxçıvana gəlirəm. Burada gedən prosesləri görürəm. Bəli, İslam Mədəniyyətinin Paytaxtı statusunu daşımaq üçün Naxçıvanda tələb olunan bütün amillər var. Birincisi, Naxçıvan qədim mədəniyyət mərkəzidir. Bu gün həm də dünyanın ən müasir şəhərləri sırasındadır. Görkəmli dövlət xadimi Heydər Əliyev kimi siyasətçinin, Mirzə Cəlil, Hüseyn Cavid kimi ədəbiyyat korifeylərinin, Bəhruz Kəngərli kimi realist rəssamın, Ramiz Mirişli, Nəriman Məmmədov kimi tanınmış bəstəkarların, onlarla akademikin boya-başa çatdıqları Naxçıvan bu gün yüksək səviyyəli elmi konfransların, beynəlxalq idman yarışlarının keçirildiyi bir məkandır. Bəşəriyyətin ikinci atası Nuh Peyğəmbər bu diyarda yer üzünə çıxıb. Bayaq söhbət etdiyimiz Əshabi-Kəhfin adı müqəddəs kitabımız “Qurani-Kərim”də çəkilir. Bunlar İslam Mədəniyyətinin Paytaxtı statusunu almaq üçün Naxçıvanda tələb olunan amillərin kiçik bir qismidir. Naxçıvanda multikultur ənənələr qorunub saxlanılır, bu ənənələr müasir müstəvidə daha da inkişaf etdirilir.

Naxçıvanlılar qonaqpərvərdirlər, mehribandırlar, səmimidirlər. Onların bu yüksək və müsbət insani keyfiyyətləri qarşısında baş əyirəm.

Ölkəmizdə müstəqilliyin ilk addımları məhz Naxçıvanda atılıb, demokratik proseslərə buradan start verilib. Düşünürəm ki, Laçın, Zəngilan, Qubadlı və digər torpaqlarımız işğal olundu, ancaq Azərbaycan yaşadı və yaşayır. Həmin torpaqlar gec-tez sülh və ya digər yolla alınacaq. Naxçıvan bu taleyi yaşasaydı, bu gün Azərbaycanın varlığından danışa bilməzdik. Bu, mənim subyektiv fikrimdir, kimsə razılaşmaya bilər, bu, onun şəxsi işidir. Bir qədər geriyə boylansaq, bayaq da dediyim kimi, Əlincəqala 14 il mühasirədə qalsa da, dünyanın ən məşhur sərkərdəsinə baş əymədi. Vətəni hər şeydən uca tutanlar əsl qəhrəmanlardır. Bu gün Naxçıvanda Əmir Teymura baş əyməyənlərin övladları yaşayır. Mən bunu da həmin amillər sırasında hesab edirəm. Mühüm amillərdən biri də Naxçıvanda sağlam cəmiyyətin, asayişin bərqərar olmasıdır. Burada yüksək mənəviyyatlı gənc nəslin formalaşması, onların zərərli vərdişlərdən uzaqlaşdırılması, milli və mənəvi, dini dəyərlər ruhunda tərbiyə olunması istiqamətində bir sıra əhəmiyyətli işlər görülüb.

***– Naxçıvandan hansı təəssüratlarla ayrılırsınız?***

– Buraya hər gəlişimdə təəssüratlarım bir qədər də zənginləşir. Çünki Naxçıvan durmadan inkişafdadır. Bunu hər addımda görmək olar. Təbii ki, bu da hər bir vətəndaşda böyük ruh yüksəkliyi yaradır. Arzu edirəm ki, bu hiss naxçıvanlıları heç vaxt tərk etməsin.

***– Müsahibə üçün sağ olun.***

**Muxtar MƏMMƏDOV**

## Kitablar bizim ən yaxın dostumuzdur

### Çalışaq onlardan ayrılmayaq

*Günümüzdə əksər insanlar klassik formada kitab oxumağı dünənin tərzi kimi qəbul edir. Onlar fikirləşirlər ki, internetdən, sosial media şəbəkələrindən lazımi informasiya və məlumat ala bilərlər. Amma bu, düzgün fikir deyil. Kitab oxumaq bizim fikirlərimizi dəqiq və daha dolğun şəkildə ifadə etməyə, düzgün nitqə, stresin azalmasına, həyata baxış tərzimizə, eyni zamanda oxuma və düşünmə qabiliyyətimizə müsbət təsir göstərir. Süjeti izləməyin, qəhrəmanların adlarını yadda saxlamağa cəhd etməyin özü də yaddaşın güclənməsinə kömək edən amillərdən biridir.*

Hər birimizin evində kiçik bir kitabxanamız olsa, həm estetik görünüş, həm də mənəvi cəhətdən ruhumuzu oxşamazmı? Niyə 24 saatımızın heç olmasa, 1 saatını bu pulsuz məşğuliyyətə ayırmayaq? Özü də muxtar respublikamızda kitab oxumağımıza bu qədər şərait yaradılmışkən. Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası, Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası, Naxçıvan Dövlət Universitetinin və AMEA Naxçıvan Bölməsinin elektron kitabxanaları və digərləri hər zaman oxucuların xidmətindədir. Yetər ki hər kəsdə oxumaq həvəsi olsun.

Bu da danılmaz faktdır ki, kitab mütaliəsinin uşaqlara, gənclərə aşılanmasında ailənin rolu böyükdür. Çox doğrudur ki, mütaliənin yaşı yoxdur. Hər bir valideyn övladına lap kiçik yaşlarından bu vərdişi aşılamalıdır. Onlara nağıllar oxuyaraq, hər hansı bir müsbət hərəkətini kitabla mükafatlandıraraq insanın ən gözəl dostunun kitablar olduğunu dərk etdirməlidir. Uşaqlar yaşıdları ilə geyindiyi paltarla, az yaşda mobil telefonunun olması ilə rəqabət aparmalı deyil, oxuduqları kitablarla, qazandıqları biliklərlə fəxr etməlidir. Çünki bədii zövqü daha yüksək olan uşaq gələcəkdə intellektli, savadlı, mənəviyyatlı bir vətəndaşa çevriləcəkdir. Bu həm də övladlarınızın təhsildə qazanacağı müvəffəqiyyətlərə stimul olacaqdır.

Mütaliənin orqanizmimiz üçün faydasını bilən hər bir kəs bu gözəl vərdişdən heç vaxt ayrı qalmaz, məncə. Çünki mütailə zehni qabiliyyəti gücləndirir, insanın beynini xəstəliklərdən qoruyur, onun fəaliyyətinə müsbət təsir edir.

Bir çox insan kitab oxumağa vaxtının olmadığını deyir. Bəli, əksəriyyət üçün bu, belədir. Lakin atomu parçalayan, yerin cazibə qüvvəsini kəşf edən, kosmosa kosmik gəmi göndərən bir insan tapılıbsa, heç şübhəsiz ki, bu problemin də həlli yolları vardır. Bu gün əksər kitabların audio versiyaları yaradılıb. Artıq insanlar audio versiyası olan istənilən kitabı yolda gedərkən, hər hansı işlə məşğul olarkən dinləyərək mənimsəyə bilər. Onu da deyək ki, fiziki olaraq kitabdan oxumağın verdiyi zövqü heç nə əvəzləyə bilməz. Buna görə də kitab oxumaq, onu gənc nəslin əsl sevimli məşğuliyyətinə çevirmək hər birimizin borcudur. Elə bu mühüm sosial məsələnin həlli məqsədilə ötən il bununla bağlı muxtar respublikamızda əhəmiyyətli bir addım atıldı. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2017-ci il 28 avqust tarixdə “Oxunması zəruri olan kitablar haqqında” Sərəncam imzaladı. Sərəncamla Azərbaycan və dünya ədəbiyyatı nü-




munələrindən ibarət oxunması zəruri olan kitabların siyahısı təsdiq edilib. Siyahıya gələcəkdə yeni kitabların adının salınması da nəzərdə tutulub. Bu addım ölkə miqyasında da böyük sevinclə qarşılanıb və təqdir olunub.

Bu faktı xatırlamaqda məqsədimiz odur ki, bu gün muxtar respublikamızda mütaliəyə çox yüksək səviyyədə diqqət göstərilir, bunun üçün zəruri addımlar atılır. Bu isə gənclərimizdə mütaliəyə olan marağı artırır.

Kitab oxumaq bütün zamanlarda böyük əhəmiyyət kəsb edib. Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvi mütaliənin zəruriliyini qızıl misralarla ifadə edib:

*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Oxudum, oxudum sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*

Ümumilikdə isə bədii əsər oxumayan insan mənəvi cəhətdən kamil ola bilməz. Bədii irsimizi qorumağın yolu onu oxuyaraq dərininə varmaq, bizə verdiyi mənəvi üstünlüyü dərk etməkdir. Nə gözəldir ki, dinimiz də oxumağı, öyrənməyi üstün tutur.

Bu gün şəhərimizdə çox sayda kitabxana və kitab evləri fəaliyyət göstərir. Belə ünvanlardan siz istədiyiniz janrda kitablar əldə edə bilərsiniz. İndi kitab satışı obyektlərində münasib qiymətə, hər yaşa uyğun kitablar tapmaq mümkündür. Hətta bəzi mağazalarda biz istədiyimiz kitabı çox az məbləğ ödəməklə kirayə də götürə bilərik.

Dünyagörüşümüzü, məntiqimizi, yaddaşımızı, yaradıcılıq qabiliyyətimizi və ən əsası söz ehtiyatımızı artırmaq istəyiriksə, kitablardan uzaq qalmayaq. Onları həyatımızın bir parçasına çevirək.

**Aygün BAĞIROVA**

## Maarifləndirici seminarlar davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən “Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi”nin tətbiqinə dair maarifləndirici seminarlar davam etdirilir.***

Növbəti tədbir Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşlarının iştirakı ilə təşkil edilib. 35 müəssisədən 38 nümayəndənin iştirak etdiyi seminarda nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin nümayəndələri tərəfindən “Əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sistemi”nin tətbiqi mövzusuna dair videotəlimat və slaydlar vasitəsilə məlumatlar verilib, seminar iştirakçılarının mövzu ətrafında sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Ədəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 677